*Nümunə:*

# KLİMAKTERİK SİNDROMUN GENİSTEİN PREPARATI İLƏ MÜALİCƏSİ

Cəfərova T.F.

*Azərbaycan Tibb Universiteti. I Mamalıq və ginekologiya kafedrası, Bakı, Azərbaycan*

***Əlaqə üçün:** AZ 1134, Bakı şəhəri, Ə.Tağızadə küç., 66, mən.56; e-mail: eferovaterlane@ gmail. com

Başlıqdan sonra 200-250 sözdən ibarət (şrift – ölçüsü 10pt, interval – 1,15) strukturlaşdırılmış xülasə (işin məqsədi, metodlar, nəticələr, yekun qeyd edilməklə) verilməlidir. Xülasə ingilis dilinə tərcümə edilməlidir. Xülasədən sonra 5-ə qədər də açar sözləri (şrift – ölçüsü 10pt, interval – 1,15) verilməlidir.

Başlıq, xülasə və açar sözlər ingilis dilinə tərcümə edilməlidir.

<u>İcmall məqalə</u> başlıq, xülasə, ədəbiyyat siyahısı daxil olmaqla 6000 sözlə məhdudlaşmalıdır.

İcmal məqalənin başlığı orijinal məqalədə olduğu kimi tərtib edilir.

Başlıqdan sonra 200-250 sözdən ibarət (şrift – ölçüsü 10pt, interval – 1) xülasə verilməlidir. Xülasə ingilis dilinə taecümə edilməlidir. Xülasənin sonunda 5-ə qədər də açar sözləri (şrift – ölçüsü 10pt, interval – 1,15) verilməlidir.

Başlıq, xülasə və açar sözlər ingilis dilinə tərcümə edilməlidir.

<u>Orijinal məqalələr</u> aşağıdakı bölmələrdən ibarət olmalıdır: "Giriş", "Material və metodlar", "Tədqiqatın nəticələri və onların müzakirəsi", "Yekun", "Ədəbiyyat siyahısı".

**1. Giriş.**

Bu bölmədə tədqiqatın aktuallığı və sonda isə işin məqsədi şərh edilməlidir.

**2. Material və metodlar.**

Bu bölmədə tədqiq edilmiş materialın həcmi, daxil etmə/çıxarılma meyarları, tədqiqat metodları, alınmış rəqəm göstəricilərinin işlənilməsi üsulları təqdim olunmalıdır. Mütləq tədqiqat materiallının qruplar üzrə bölgüsü göstərilməlidir.

Tədqiqatda istifadə olunmuş aparatların və diaqnostik texnikaların texniki xarakteristikası

şərh edilməli, hormonal və biokimyəvi dəstlərin adları qeyd edilməlidir.

Ümumi qəbul olunmuş metodlardan istifadə olunduqda isə müvafiq ədəbiyyat istinadı göstərilməlidir.

Əgər məqalədə heyvanlar üzərində aparılmış eksperimentlər və ya xəstələrdə həyata keçirilmiş proseduralar şərh edilirsə, bunların Hesinki Deklorasiyası Etik Komitəsinin standartlarına (1983) uyğun olaraq yerinə yetrilməsi qeyd olunmalıdır.

**3. Tədqiqatın nəticələri və onların müzakirəsi.**

Bu bölmədə, əldə edilən nəticələr əyani materiallarla (cədvəllər, şəkillər) əstik olunaraq şərh edilməlidir. Cədvəllərdə və şəkillərdə verilən məlumatlar mətndə təkrar olunmamalıdır, yalnız mühüm məlumatlar ümumiləşdirilərək qeyd edilməlidir. Tədqiqatda əldə olunmuş məlumatlar üyğun elmi istiqamətdə olan digər tədqiqatlarla müqayisə edilməli və bunun əsasında müzakirələr aparılmalıdır. Lakin, faktlarla tam qeyri-dəqiq, əsassız məlumatlardan və nəticələrdən istifadə olunmamalıdır. Burada məqalənin "Giriş" bölməsində artıq verilmiş məlumatlar təkrarlanmamalıdır. Bu bölmədə əsaslandırılmış tövsiyələr verilə bilər.

**4. Yekun.**

Bu bölmə ya ümumi nəticə şəklində, və ya konkret nəticələr formasında yazıla bilər.

**5. Ədəbiyyat siyahısı.**

Mətninin sonunda orijinal məqalələr üçün 10-15-ə, icmal məqalələri üçün 30-a qədər istifadə olunmuş «Ədəbiyyat siyahısı» verilməlidir (interval 1,25, şrift 11). Ədəbiyyat siyahısına əsasən son 10-15 ilin işləri qeyd edilməlidir. Mətndə ədəbiyyata istinad kvadrat mötərizədə verilməlidir. Ədəbiyyat siyahısında mənbələr onların mətindəki istinadına uyğun və ardıcıl olaraq nömrələnməlidir. Ədəbiyyat siyahısı tərtib olunarkən aşağıdakı tələblər nəzərə alınmalıdır:

Çoxcildli nəşrlərə istinadlarda göstərilməlidir: Müəllif (soyadı, inisialları). Əsərin adı: [cildlərin sayı] / Müəllifin inisialları, soyadı. – şəhər: nəşriyyat, – cildin nömrəsi. – nəşr ili. – həcmi.

*Nümunə:* Древаль, О.Н., Нейрохирургия: [в 2-х томах] – / О.Н.Древаль, А.В.Басков, Г.И.Антонов – Москва: ГЭОТАР-Медиа, – т. 1. – 2013. – 592с

Bir müəllifli nəşrlərə istinadlarda göstərilməlidir: Müəllif (soyadı, inisialları) Əsərin adı / Müəllif (inisiallar, soyadı). – şəhər: nəşriyyat, – nəşr ili. – həcmi.

*Nümunə:* Боровиков, В.П. Популярное введение в современный анализ данных в системе STATISTICA / В.П.Боровиков. – Москва: Телеком. – 2015. – 288 с.

Çox müəllifli nəşrlərə istinadlarda göstərilməlidir: Birinci müəllifin soyadı, inisialları, əsərin adı / Müəlliflər (inisialları, soyadları); – şəhər (iki şəhər olduqda hər ikisi qeyd olunmalıdır): nəşriyyat, – nəşr ili. – həcmi.

*Nümunə:* Трезубов В.Н. Ортопедическая стоматология. Учебник для медицинских вузов. / В.Н.Трезубов, Л.М.Мишнёв, Н.Ю.Незнанова – Санкт-Петербург: Спец. Лит, – 2013, – 367 с.

3-ə qədər müəllifi olan jurnal məqalələrinə istinadlarda göstərilməlidir: Müəllifin soyadı, inisialları, əsərin adı // – şəhər: jurnalın adı, – nəşr ili, cildin nömrəsi, jurnalın nömrəsi, səhifələr.

*Nümunə:* Зайцева, С. В. Зайцева, О.В. Бронхиты у детей – возможности фитотерапии // – Москва: Русский медицинский журнал, – 2013. – т. 21, № 2. – с. 96–102.

3-dən çox müəllifi olan jurnal məqalələrinə istinadlarda göstərilməlidir: Birinci müəllifin soyadı, inisialları. Əsərin adı / Üç müəllifin inisialları və soyadları [və b.] // Jurnalın adı, – şəhər: – nəşr ili. Cildin nömrəsi, jurnalın nömrəsi, – səhifələr.



*Nümunə:* Ильенкова, Н.А. Дифференциальный подход к бронхообструктивному синдрому у детей грудного возраста / Н.А.Ильенкова., С.В.Смирнова, Н.А.Соловьева [и др.] // Доктор ру. – Москва: – 2016. – т.6, № 123, – с. 6 - 8.

Konfrans materiallarına istinadlarda göstərilməlidir: Müəllif (soyadı, inisialları) Məruzəninadı // konfransın adı, – şəhər: nəşriyyatın adı, – tarixi, – nəşr ili, – səhifələr

*Nümunə:* Алиев, М.Н., Аллахвердиев, В.Д. Влияние сы-воротки больных шизофренией как патологиче-ское состояние экспериментально моделируе-мых беременных крыс // Тезисы докладов III съезда фармацевтов Азербайджана, – Баку: – 1988, – с. 187-189.

Dissertasiyalara və ya onların avtoreferatlarına istinadlarda göstərilməlidir: Müəllif (soyadı, inisialları). Dissertasiyanın adı: / iddia olunan elmi dərəcə, elm sahəsi / –şəhər, il. – həcmi

*Nümunə:* Нувахов Н.Р. Морфометрические особенности верхней челюсти и использование их при имплантационных операциях: / автореферат диссертации кандидата медицинских наук )/ – Москва, 2011. – 24 с.

**Dərc olunmamış mənbələrə istinad edilməməlidir.**

**Cədvəl və şəkillər.**

Cədvəl və şəkillər mətndə ilk istinaddan sonra verilməlidir. Ağ-qara və rəngli şəkillər *jpg* formatında olmalıdır. Rəngli şəkillər üçün əlavə ödəniş edilməlidir. Şəkillərin adı 1 intervalla, 12pt şriftlə, izahlı altyazıları 1 intervalla, 11pt şriftlə yazılmalıdır. Cədvəllərin adları 1 intervalla, 12pt şriftlə, içərisi 1 intervalla, 11pt, izahlı altyazıları 1 intervalla, 10pt şriftlə yazılmalıdır. Şəkillər və cədvəllər mətndəki ardıcıllığına görə ərəb rəqəmləri ilə nömrələnməlidir.

Əlyazmanın sonunda maliyyə dəstəyinin olub olmaması və müəlliflərin maraqlarının toqquşması barədə məlumat verilməlidir.

**Təqdim olunmuş material əvvəllər nəşr olunmamalıdır!**

**Əlyazmanın birinci səhifəsində təşkilatın və ya bölmənin rəhbərinin vizası, axırıncı səhifədə isə bütün müəlliflərin imzası olmalıdır.**

**Bu qaydalara əməl edilməyən əlyazmalar dərc olunmayacaq.**
**Material resenzent tərəfindən yoxlanıldıqdan sonra qəbul ediləcək.**

**Əlyazma və materialın elektron versiyası aşağıdakı ünvana çatdırılmalıdır:** AZ 1078. Bakı şəhəri, Səməd Vurğun küçəsi 165. Azərbaycan Tibb Universiteti, 3 saylı tədris binası, İnsan anatomiyası və tibbi terminologiya kafedrası, prof. Hüseynov Balakişi Məmmədəli oğlu.
**E-mail:** medun91@mail.ru
**Tel:** (+99450) 527-32-06